Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Yetsə qulağına Şəmşirin səsi

**Aşıq Şəmşirin 125 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2018**

**Tərtibçilər:** **Aynurə Əliyeva**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Yetsə qulağına Şəmşirin səsi:** Aşıq Şəmşirin 125 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed. A.Əliyeva; ixt.red. və burax.məsul Ş. Qəmbərova; red. K. Ağazadə. - Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2018. – 26 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2018**

## Tərtibçidən

Xalqın tarixi varlığı sosial-siyasi amillərlə yanaşı, həm də mənəvi mədəniyyətinin qədimliyi ilə bəlli olur. Mənəvi mədəniyyət deyəndə isə sözsüz, birinci yada düşən ilkin söz sənəti folklordur. O folklor ki, yaranıb-yayılmasında yurdda, eldə-obada yaşayan hər fərd, soy, nəsil, ümumilikdə el iştirak edir. Elin sözü, elin özü qədər qədimdir. İlkin nümunələri nə qədər bəsit olsa da, təbiidir, canlıdır. Elin bu zəngin söz xəzinəsinə el özü də onun ritminə uyğun havalar bəstələmiş, onu dodaqaltı qımqımlarla oxumuşlar. Bu havalar cilalana-cilalana sonrakı bəstəkarlıq sənəti üçün ilkin qaynaq olmuşdur. Əsrlər bir-birini əvəz etmiş, zaman dəyişmiş, ancaq xalq inciləri əbədiyaşar olmuşlar. Xalq poeziyası bir sənət abidəsidir. Bu abidənin bir sütunu da aşıq sənətidir. Aşıq sənəti bütün varlığı ilə elinə-obasına bağlı həmin sənətkarların sözü-söhbəti canlı danışıq dilinin gözəllik və incəliklərini özündə birləşdirir. Belə gözəlliklər yaradan el aşıqlarından biri də dağların saz və söz şimşəyi el nəğməkarı, el ozanı Aşıq Şəmşirdir. Folklorun mühüm bir qolunu təşkil edən aşıq poeziyasında dədə Şəmşir həyat hadisələrinin incəliklərini söz çələngi ilə bəzəyən sənətkardır. Aşıq Şəmşir yaradıcılığını dərinliyi və genişliyi baxımından okeana bənzətmək olar. O, təkcə böyük söz ustası deyil, həm də filosofdur. Aşıq Şəmşir şeir, saz-söz mədəniyyətini elə yüksək səviyyəyə qaldırmışdır ki, elə xüsusi dəst-xətlə öz imzasını qoymuşdur ki, ondan başqa bu zirvəni heç kim fəth edə bilməyib. Onun yaratdığı qiymətli ədəbi miras xalqımızın əmlakı, Aşıq Şəmşir şöhrəti isə xalqın qürurudur.

Aşıq Şəmşirin 125 illik yubileyi münasibətilə işlədiyimiz bu vəsait “Giriş” və “Keçiriləcək tədbirlər” hissəsindən ibarətdir. “Giriş” hissədə Aşıq Şəmşirin həyat və yaradıcılığından, digər hissədə isə kitabxanalarda keçiriləcək tədbirlərdən bəhs olunur.

## Giriş

Türk dünyasının dərin qatlarından süzülüb gələn ozan-aşıq sənətinin, aşıq poeziyasının qədim kökləri şifahi xalq ədəbiyyatına və xalq yaradıcılığına, xalqın bədii özfəaliyyətinə gedib çıxır. Onun rüşeymi bayatılarda, xalq məsəllərində, xalq havalarında, xalqın təbii, arasıkəsilməz, gündəlik bədii özfəaliyyətindədir. Aşıq yaradıcılığı çox qədim tarixə malikdir. O, "Dədə Qorqud" kimi ölməz sənət abidəsi yarada bilmişsə, deməli ilk kökləri daha dərindədir. Azərbaycan aşıq poeziyası, aşıq sənəti "Dədə Qorqud" dastanları meydana çıxandan çox-çox əvvəl yaranmağa başlamışdır. Bu dastanlarda aşıq böyük rol oynayır. O, müdrik, ağıllı bir adam kimi təsvir olunur, "el bilicisi" adlandırılır. Hətta göstərilir ki, dastanları yazan, qələmə alan Dədə Qorqud, yaxud Qorqud ata, ozandır, yəni özü aşıqdır. Qədim zamanlardan Azərbaycan xalqı aşıqlara böyük məhəbbət bəsləmiş, hər zaman onları hörmətlə qarşılamışdır. Bu şaxəli, qollu-budaqlı sənətdə isə musiqi, ifaçılıq, rəqs və şeir bir-birini tamamlayır. Ona görə də aşıq sənəti şərəfli olduğu qədər də çətin, mürəkkəb və son dərəcə ustalıq, həssaslıq və məharət tələb edən sənətdir.

Bilindiyi kimi XX əsr Azərbaycan aşıq poeziyasının ən tanınmış və məşhur simalarından biri Aşıq Şəmşirdir. Əgər XVI əsrdə Dirili Qurbani, XVII əsrdə Abbas Tufarqanlı, XVII-XVIII əsrlərdə Xəstə Qasım, XVIII əsrdə Abdalgülablı Valeh, XIX əsrdə Aşıq Ələsgər və aşıq Ağdabanlı Qurban aşıq poeziyasına öncüllük edib sənətin zirvəsində dayanırdılarsa, XX əsrdə Aşıq Şəmşir bu məqama çatmışdır. Aşıq Şəmşirin aşıq-şairlik səcərəsi uzun əsrlərdən qaynaqlanıb gəlirdi. Aşıq Şəmşir 15 mart 1893-cü ildə Kəlbəcərin Dəmirçidam kəndində görkəmli el sənətkarı, şair Qurbanın ailəsində dünyaya gəlib. 1430-cu ildə Göyçə mahalının Sarıyaqub kəndində anadan olan, ulu babası

Miskin Abdal Şah İsmayıl Xətainin yaxın dostu, müəllimi və silahdaşı olmuşdur. 1515-ci ildə Şah İsmayıl Xətai Miskin Abdala öz möhürü ilə təsdiqlənmiş Şəhadətnamə vermişdir. Xətai öz dəsti-xətti ilə yazırdı ki, bu şair, yəni Miskin Abdal, öz ağlı və kamalı ilə şahlığa layiqdir. Qədimdən müqəddəs ocaq kimi tanınan, yaşadığı Sarıyaqub kəndi isə Şah İsmayıl tərəfindən elə ocaq kimi təsdiqlənir və ona bağışlanır və ətrafdakı beş kəndin vergisi xüsusi fərmanla ona ayrılır. Hazırda Şah İsmayıl Xətainin imzaladığı həmin fərmanların əsli Goranboy rayonun Qaradağlı kəndində yerləşən, Miskin Abdal ocağında saxlanılır.

Şəmşir poeziyasının ikinci qaynağı atası Ağdabanlı Qurbanın öz yaradıcılığı, klassik ədəbiyyatla və poeziya ilə onu erkən tanış etməsidir. Azərbaycan və fars dillərini mükəmməl bilən, eləcədə Şərq klassiklərinin şeirlərini, mütaliə edən Qurban, dövrünün sənətkarları arasında böyük nüfuz sahibi idi. Xüsusilə Aşıq Ələsgər onun savadına, bilik və bacarığına yüksək qiymət verirdi. Bir-birlərinə yaxın dost olan bu el sənətkarları tez-tez görüşürdülər. Görüş məclisləri çox zaman Ağdaban kəndindəki Təkarmudun dibindən çıxan bulağın üstündə olurdu. Sonralar bu “Qurban bulağı” məclisi kimi formalaşdı. Aşıq Şəmşirin ilk ustadları da məhz atası Aşıq Qurban və Aşıq Ələsgər olub. Aşıq Şəmşir sonradan onların yaratdığı “Qurban bulağı” ədəbi məclisinin gənc və fəal üzvünə çevrilmişdir. Doğrudanda tez bir zamanda ozan-aşıq sənətində “Dədə” adını qazanmış bu ifaçı aşıq, həm də geniş yaradıcılıq imkanlarına malik şair kimi də xalq içərisində, ədəbi mühitdə şan-şöhrət sahibi olmuşdur.

Dədə Şəmşir saz - söz sənəti ilə yanaşı həm də 1927-ci ildə ailə həyatı qurduğu sevimli Güllüsünə dərin hisslər bəsləyən ər, uşaqlarına gözəl bir ata və hər zaman nəvələrinin qəlblərində yaşayan baba olmuşdur. Dədə Şəmşirin 10 övladı (5 oğul, 5 qız), 29 nəvəsi, 44 nəticəsi var.

1955-ci ildə onun həyatında dərin iz buraxan bir hadisə baş verir. Aşıq Şəmşirin həmin ilin yayında Kəlbəcərdə sevimli şairimiz Səməd Vurğunla görüşü tarixi bir hadisəyə çevrildi. Azərbaycanın Xalq şairi Səməd Vurğun respublikanın rayonlarına səfərə çıxırdı. Bu dəfə o, Kəlbəcərə gəlmişdi. Şairi qarşılayanlar arasında aşıq Şəmşir də var idi. O, Səməd Vurğunu öz qoşma-şeirləri ilə salamlamışdır. Sonradan şairlər möhkəm dost olublar və Səməd Vurğunun təşəbbüsü ilə Aşıq Şəmşir Bakıya dəvət olunmuş və Azərbaycan Yazıçılar İttifaqına üzv qəbul edilmişdir. Səməd Vurğun aşıqdan xahiş etmişdir ki, əlyazmalarını Bakıya gətirsin. Onun təşəbbüsü ilə Şəmşirin şeirlərinin külliyyatı hazırlanmışdır. Saz-söz sənətində göstərdiyi xidmətlərə görə Aşıq Şəmşir, Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüş, "Fəxri nişan" ordeni ilə təltif edilmişdir. Ulu öndər H.Əliyev bu tarixi görüşü öz xatirələrində çox qiymətləndirmişdir: "Baxın ha Səmədlə Aşıq Şəmşir bir dağın döşündəki bulağın qoşa gözüdür. Biri şifahi ədəbiyyatdır, biri yazılı ədəbiyyat. Baxın görün bunlar əl-ələ verib qovuşduğu kimi, qucağlaşdığı kimi bu su da bir məcrada necə birləşib. Bu bir xalqın mənəviyyatıdır, bir xalqın dünyasıdır".

Dədə Şəmşir qələmə aldığı qoşma, gəraylı, təcnis, divani, bayatı, rübai, qəzəl və müxəmməslərlə Kəlbəcər ədəbi mühitini, eləcə də yazılı və şifahi poeziyamızın ən önəmli cəhətlərini ustalıqla mənimsəyən söz sənətkarı kimi öz məktəbini yaratmışdır. Onun 40-dan artıq şəyirdi vardı. Aşıq Qardaşxanın, Qəmkeş Allahverdinin, Aşıq Xalıqverdinin və bu gün çoxlarının yaxşı tanıdığı onlarla saz-söz sənətkarlarının yetkinləşməsində, kamilləşməsində Aşıq Şəmşir məktəbinin əvəzsiz rolu olub. Bu məktəb təkcə aşıq sənətinə deyil, ümumən saz-söz sənətinə təsir göstərməklə Bəhmən Vətənoğlu, Sücaət kimi şairlərin yetişməsinə münbit zəmin yaradıb.

Aşıq Şəmşirin qeyri-adi səsi və çalğısı saz-söz sərrafı olan Kəlbəcər ellərində yüksək dəyərləndirilir, ustad sənətkarın orijinal ifaçılığı və şairliyi heç kəslə müqayisə edilmirdi. Nə yaxşı ki, fitrət sahibinin lent yazıları bu günümüzəcən gəlib çatıb.

Professorlardan M.Arif, H.Araslı, M.H.Təhmasib, M.Quluzadə, M.Vəkilov, V.Vəliyev, P.Əfəndiyev, Q.Xəlilov, Q.Namazov, İ.Abbas, S.Paşayev, T.Bünyadov, C.Abdullayev, dosentlərdən Y.Babayev, M.Allahmanov, İ.Ələsgərov, görkəmli şair-yazıçılarımızdan S.Vurğun, O.Sarıvəlli, N.Xəzri, M.Rahim, T.Bayram, Q.İmamverdiyev, M.Aslan, M.İsmayıl, H.Kürdoğlu, N.Həsənzadə, Z.Yaqub, Ş.Əsgərov, İ.Tapdıq, S.Rüstəmxanlı, Z.Cabbarlı, F.Sadıq, A.Babayev, Ə.Qurbanov, A.Əlizadə, B.Vətənoğlu, İ.Coşqun, S.Sərxanlı kimi qələm sahibləri ilə yanaşı cild-cild romanlar, povestlər müəllifləri Ə.Vəliyev, B.Bayramov, İsa Muğanna, İ.Məlikzadə, Ə.Qasımov, C.Əlibəyli, S.Əhmədov kimi sənətkarlar ayrı-ayrı illərdə dövri mətbuatda Dədə Şəmşirin sənət dünyasından, şeirlərinin poetik vüsətindən, sanbal-siqlətindən söz açıblar.

Aşıq Şəmşirin "Şeirlər" adlı ilk kitabı 1959-cu ildə "Akademiya" nəşriyyatı tərəfindən buraxılıb. Sonralar müəyyən fasilələrlə ustad sənətkarın "Qoşmalar", "Seçilmiş əsərləri", "Dağ havası", "Şeirlər", "Öyüdlər" və s. kitabları işıq üzü görüb.

Bu onun yaradıcılığının bir hissəsidir. Təəssüf ki, ermənilər ikinci Xocalı faciəsini Ağdabanda təkrarlayanda Aşıq Şəmşirin və atası Ağdabanlı Qurbanın külliyatını da yandırmışlar. Ermənilər ata və oğulun arxivlərini məhv etmişlər. Onların məzarları isə hazırda düşmənin işğal etdiyi ərazilərdə qalıb.

Sənsiz qəribsəyib, saçda tel ağlar
Dağda çiçək ağlar, bağda gül ağlar
İndi gözümüzdən axır bulaqlar
Yurdun viran qalıb, bilirsən baba?..

Dədə Şəmşir həm də bir neçə dastanların müəllifidir. Məhz “Cəlal və Minayə”, “Misir və Sənəm”, “Şəmşir və Sənubər adlı dastanlar ustad sənətkara şöhrət gətirən əsərlərdəndir. Dədənin dördüncü dastanı “Cəlal və Şəkər” adlanır. Beşinci dastan “İrəvanlı Məhəmməd” və son dastanı böyük Azərbaycan şairi Səməd Vurğunun 1955-ci ilin avqust ayında Kəlbəcərə – İstisuya gəlişi ilə əlaqədar “Aşıq Şəmşirlə Səməd Vurğunun görüşü” adlı dastanıdır. Dastan Dədənin ilk görüşündən başlayır və Səməd Vurğunun vəfatı ilə bitir. Adları qeyd edilən əsərlərdən qalanlar “Şəmşir və Sənubər” və “Aşıq Şəmşirlə Səməd Vurğunun görüşü” dastanlarıdır. Qalan dastanların əksəriyyəti ermənilər tərəfindən yandırılıb məhv edilmişdir. Geniş yaradıcılıq imkanlarına malik Dədənin səhnə əsərləri yazdığı da məlumdur. 1943-44 cü ildə yazdığı “Polad” pyesi və ikinci səhnə əsəri olan “Əsli və Kərəm” dastanı səhnələşdirilmişdir. 50-ci illərdə tanınmış musiqişünas Əminə Eldarova tərəfindən Aşıq Şəmşirin 70-ə yaxın aşıq havaları lentə yazılmışdır. İndi həmin lent yazıları Azərbaycan Dövlət Radiosunun qızıl fondunda mühafizə olunur. Bu yaxınlarda isə həmin lent yazıları əsasında, Aşıq Şəmşirin 124 illiyinə həsr olunmuş, “Sevindim” adlı albomu işıq üzü görüb. Həmçinin Aşıq Şəmşirin həyat və yaradıcılığına həsr olunmuş “Aşıq ürəkli şair, şair ürəkli Aşıq Şəmşir” (Osman Sarıvəlli, 1973), “Saxla izimi, dünya” (Məmməd Aslan, 1989), “Dədə Şəmşir yaddaşlarda” (Qənbər Şəmşiroğlu, 2000) kitabları vardır.

El sənətkarın yaradıcılığına, dövlət səviyyəsində də hər zaman yüksək qiymət verilib. Hələ 1973-cü ildə ümummilli lider Heydər Əliyevin imzaladığı qərara əsasən, Aşıq Şəmşirin 80 illik yubileyi geniş qeyd olundu, 1980-ci ildə isə daha bir qərara əsasən Kəlbəcərin Mədəniyyət evinə Aşıq Şəmşirin adı verildi. Azərbaycanın müstəqillik illərində isə ümummilli lider Heydər Əliyevin 2003-cü ildə imzaladığı sərəncama əsasən,

Aşıq Şəmşirin 110 ilik yubileyi dövlət səviyyəsində qeyd edilib, Göygöl rayonundakı 7 illik uşaq musiqi məktəbinə Aşıq Şəmşirin adı verildi və büstü ucaldıldı.

Aşıq sənətinə bu gün də dövlət səviyyəsində böyük diqqət yetirilir. Heydər Əliyevin mədəniyyət siyasəti bu gün Azərbaycan Prezidenti İlham Əliyev və 1-ci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən ləyaqətlə davam etdirilir. Heydər Əliyevin fondunun Prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsləri və dəstəyi ilə 2009-cu ildə Azərbaycanın aşıq sənəti YUNESKO-nun Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmişdir. 2010-cu ildən isə *"Aşıq Şəmşir" Mədəniyyət Ocağı İctimai Birliyi* fəaliyyətə başladı. Mədəniyyət ocağı bütünlükdə aşıq sənətinin təbliğat və inkişaf mərkəzidir. Böyük aşıq nəslindən olan Aşıq Şəmşirin oğlu Qənbər Şəmşiroğlunun diqqəti sayəsində mədəniyyət ocağında, milli mədəniyyətimizin və mədəni incilərimizin, adət-ənənələrimizin, aşıq sənəti, folklor və digər incəsənət nümunələrinin toplanması, araşdırılması, onların qorunub yaşatması, təbliğ edilməsi və gələcək nəsillərə çatdırılması sahəsində böyük işlər görülüb. 2015-cı ildən "Aşıq Şəmşir" Mədəniyyət Ocağı İctimai Birliyi isə UNESCO-da məsləhətçi statusu qazanıb. Mərkəzin nəzdində yaradılmış Aşıq Şəmşirin xatirə muzeyində isə Miskin Abdaldan başlayıb Dədə Şəmşirin nəvələri ilə davam edən böyük aşıq nəsli ilə bilavasitə bağlı materiallar təqdim olunur. Muzey eyni zamanda Azərbaycan aşıq sənəti, o cümlədən peşəkar bəstəkarlıq məktəbi nümunələrinin qorunub saxlanmasını və inkişaf ənənəsini nümayiş etdirir. Muzey ekspozisiyasında Azərbaycan Aşıq sənətinin tarixi, qədimdə yaranan və çağdaş dövrümüzə qədər gəlib çıxan alətlər, şəxsi əşyalar, sənədlərlə tanış olmağa və aşıq musiqisini dinləməyə imkan yaradılıb.

Aşıq Şəmşirin toxunduğu bütün mövzular – dostluq və xəyanət, həqiqət və yalan, xeyirxahlıq və zülm – əsl həyat ensiklopediyasıdır, həyat təcrübəsidir və məhz bu xüsusiyyətlər ilə insanları özünə cəlb edir. Aşıq sənətinə xidmət edən, söz sənətinə ucalıq gətirən el sənətkarı Aşıq Şəmşir, xalqın daim böyük sevgi, hörmət bəslədiyi Azərbaycan aşıq sənətinin sözün əsl mənasında zirvələrindən biridir.

Görkəmli şairimiz Aşıq Şəmşirin anadan olmasının 125 illik yubileyi ilə əlaqədar olaraq, bir sıra tədbirlər: kitab müzakirəsi, oxucu konfransı, rəsm və şeir müsabiqəsi, ədəbi-bədii gecə keçirilə bilər. Şairi sevdirmək, yaradıcılığını gənc nəslə və şagirdlərə tanıtmaq məqsədilə kitabxanada kitab sərgisi təşkil olunmalıdır. Sərgiyə müxtəlif başlıqlar verilə bilər: “Aşıq ürəkli şair, şair ürəkli Aşıq Şəmşir”, “Dağların Şəmşir oğlu”, “Ruhu girov qalmış ozan”, “Aşıq-ozan sənətinin memarlarından biri”, “Aşıq Şəmşir şeirində dil və el gözəlliyi”, “Ustad Şəmşir”, “Ədəbiyyatda büstü qoyulan ustad”, “Kəlbəcərdən əbədiyyətə doğan günəş”, “Dağların saz və söz şimşəyi”, “Aşıq Şəmşirin irsi”, “Ağır ellərin mötəbər Dədəsi”, “Yetsə qulağına Şəmşirin səsi...”, “Didərgin ellər ozanı”, “Axtarıb Şəmşiri görmək istəsən”, “Ustadların ustad varisi Dədə Şəmşir”, “El deyimindən, xalq duyumundan süzülən poeziya”, “Dağlar nalə çəkib Şəmşir ağlar”, “El nəğməkarı” və s. Şairin müxtəlif illərdə çəkilmiş fotostendi, bundan başqa Aşıq Şəmşirin kitabları sərgidə öz yerini alır. Şairin əsərləri ilə yanaşı müxtəlif ədiblərin şair haqqında yazdığı kitablar, materiallar da sərgidə nümayiş oluna bilər. Görkəmli şəxslərin şair haqqında söylədikləri sitatlar və şeir parçaları sərginin daha da dolğunlaşmasına səbəb olar.

# Kitab sərgisi












**Görkəmli şəxslərin Aşıq Şəmşir haqqında söylədikləri fikirlər:**

Qədim köklərə malik olan Azərbaycan aşıq sənəti ənənələrinin davam etdirilməsi və zənginləşdirilməsində Aşıq Şəmşirin böyük əməyi vardır. Ömrünün 60 ilini öz sənəti ilə xalqa xidmətə həsr edən el şairi aşıq şeirinin ən müxtəlif formalarında gözəl sənət nümunələri yaratmış, canlı həyat lövhələri ilə dolu əsərlərində doğma xalqının fikir və duyğularını yüksək sənətkarlıqla ifadə etmişdir.

**Heydər Əliyev,**
*ümummilli lider*

Şeirlərindən aydın görünür ki, Aşıq Şəmşir qucağında yaşadığı bərəkətli torpağı, onun zirvəsi qarlı uca dağlarını, buz bulaqlı göy yaylaqlarını, güllü-çiçəkli oylaqlarını ürəkdən sevir. Yazılı ədəbiyyatımızda şairin güclü poeziya nümunələri vardır.

***Osman Sarıvəlli,***
*Xalq şairi*

Aşıq Şəmşirin şöhrəti nəinki Azərbaycandan, hətta bütünlüklə Qafqazın hüdudlarından kənarda yayılmışdır.

**Məmməd Araz,**
*Xalq şairi*

***Şeir müsabiqəsi*** – Aşıq Şəmşirin yubileyi ilə əlaqədar kitabxanalarda keçiriləcək tədbirlərdən biri ***"Aşıq Şəmşir, dəli dağdan keçəndə"*** adlı *şeir müsabiqəsi* ola bilər. Müsabiqədə iştirak edən iştirakçılar Dədə Şəmşirin ulu öndər Heydər Əliyevə həsr etdiyi şeirlərdən parçalar söyləyirlər. Kitabxanaçı öncə şairin bir neçə şeir kitabını məktəblilərə təqdim edir. Məktəblilər

müəyyən etdikləri şeiri əzbərləyərək təyin edilmiş tarixdə kitabxanaya gəlirlər. Qonaqlar və münsiflər öz yerini aldıqdan sonra kitabxanaçı hər kəsi salamlayaraq tədbirə başlayır. Şairin həyat və yaradıcılığından, onun ömür yolundan, əsərlərindən və kitablarından qısa məlumat verir. Nəfis şəkildə nəşr olunmuş kitablar hamı tərəfindən rəğbətlə qarşılanır.

*Kitabxanaçı:* Yaxın tariximizin quruculuğu olan 70-ci illər tərəqqisini öz gözləri ilə görüb, ilhama gələn ustad sənətkarın görkəmli dövlət xadimi Heydər Əliyevə həsr etdiyi şeirlər, bu gün üstündən illər keçdikdən sonra, maraqlı və təzə-tər göründüyü kimi, zamanla da həmahəng səslənir. Heydər Əliyev şəxsiyyətinin böyüklüyünü, bütövlüyünü şair fəhmi ilə dərk edən Dədə Şəmşir "Heydərin", "Yaraşır", "Torpağın dadı" kimi əsərlər yaradıb. Gəlin həmin şeirləri birlikdə dinləyək.

*Birinci iştirakçı* "Heydərin" adlı şeirini intonasiya ilə deyir.

Möhürlə yazılıb xalqın qəlbinə,
Silinməz tarixdən adı Heydərin.
Qəhrəman ellərdən alıb dərsini,
Belə böyük var ustadı Heydərin.
Sədarət daşını bu yerdən atıb,
Nurla məhəbbəti bir-birə qatıb.
Ötüb beş milyonu, altıya çatıb,
Oğlu-qızı öz övladı Heydərin.
Edir naxələfin ömrünü təbah,
Gülür xalqın üzü, daha çəkmir ah.
Qaranlıq gecəni eyləyib sabah,
Şəmşir, bizə var imdadı Heydərin.

*İkinci iştirakçı Aşıq Şəmşirin* "Yaraşır" adlı şeirini söyləyir.

Azərbaycanımın igid oğluna,
Qızıl ulduz qoşa-qoşa yaraşır.
Alqış kamalına, alqış ağlına,

Zərli tac kamallı başa yaraşır.
Qəhrəmanlar beşiyidir bu diyar,
Hələ belə olmayıbdı bəxtiyar
Su içib səhralar hər yan verir bar
Bürünübdür al qumaşa, yaraşır.
İlanlı səhralar verir ağ üzüm,
Mədənlər axıdır ləl düzüm-düzüm.
Qarabağ xörəyim, Naxçıvan duzum,
Nemət olub başdan-başa yaraşır.
Şəmşirəm, bu ada oldum minnətdar,
Vətəni hünərlə edir gülüzar.
Azərbaycanımızın 60 yaşı var,
Oğlu çatsın qoy 100 yaşa, yaraşır.

*Üçüncü iştirakçı isə Aşıq Şəmşirin "Torpağın dadı" adlı şeirini demək üçün səhnəyə yaxınlaşır.*

Ömrün uzun olsun, igid Heydərim,
Şöhrətin tarixin varağındadı.
Cənnətə dönübdü şoranlı çöllər,
Qüdrətin Vətənin çırağındadı.
Şəmşir, sevin, gülşən olub mənzərən,
Ad qazanır pambıq yığan, çaydərən.
Meyar var-əyrini, düzü göstərən,
Hərkəsin qiyməti qabağındadı.

Təxminən 10-12 iştirakçı növbə ilə əzbərlədikləri şeirləri söyləyirlər. Münsiflər heyəti şeir müsabiqəsi qaliblərini müəyyən edir, onlara diplom təqdim edilir. Həmçinin qaliblərə hədiyyə və şairin müxtəlif adda şeir kitabları da verilir.

***İcmal*** – Aşıq Şəmşirin vətənimizə sevgisi, millətə olan məhəbbəti onun bütün misralarından, şeirlərindən, ümumiyyətlə, hər kəlməsindən süzülüb ağ vərəqlərə tökülür. Onun hər bəndi, hər kəlməsi vətən qoxuyur. Aşığın yaradıcılığı

başdan-ayağa vətənə həsr olunur desək yanılmarıq. Bununla yanaşı insana, təbiətə olan sevgi də şairin əsas mövzularındandır. Bu məqsədlə Aşıq Şəmşirin yaradıcılığında vətənpərvərlik mövzusu başlığı altında ***"Kəlbəcərdən əbədiyyətə doğan günəş"*** adlı *oxucularla icmal* keçirilə bilər. İcmalda Aşıq Şəmşirin müxtəlif adda şeirlərindən istifadə etmək olar. Əvvəlcə kitabxanaçı icmal etdiyi hər bir kitabı oxuculara göstərir, onun tərtibatı, nəşriyyatı, mündəricatı haqqında məlumat verir. Sonra isə kitabda toplanmış şeirlər haqqında fikirlərini bildirməklə icmalı davam etdirir. Bu şeirlərdə Vətənin qədim, ulu keçmişi, xalqın mənəviyyatı, millət kimi formalaşmasında keçdiyi mərhələlər qürurla, yanğıyla misra qatarına düzülüb.

**Kitabxanaçı:** Elə sənət adamları, elə dahilər var ki, cismən həyatdan köçsələr də mənən qəlblərdə heykəlləşir, kiməsə gərək olurlar. Belə şəxslərin əsl həyat yolu ölümündən sonra başlayır, adları ölməzlik rəmzi kimi insanların şüuruna həkk olur. Həqiqi, ölməz sənət sahibləri...

Aşıq-ozan mədəniyyəti çoxəsirlik tarixə, qədim köklərə malik sinkretik sənət növü olmaqla günümüzəcən gəlmiş, yaşamış və yaşamaqdadır. Qopuzdan saza, yanşaqdan aşığa qədərki tarixi təkmilləşmə prosesində yeni sənət meyarları meydana çıxmış, elin ciddi sınaq və imtahanından keçən el sənətkarları "dədə", "ustad", "pir" və s. kimi yüksək titulların daşıyıcısına çevrilmişlər. Dədə Qorquddan başlamış Dədə Şəmşirə kimi saz-söz sənətkarlarının böyük bir silsiləsi Azərbaycan ədəbi-mədəni mühitinin formalaşmasına, ana ruhlu musiqimizin inkişafında öz əvəzsiz töhfələrini vermişlər. Bu sıradan Qurbani, Aşıq Abbas Tufarqanlı, Sarı Aşıq, Xəstə Qasım, Dəllək Murad, Çoban Əfqan, Yəhyabəy Dilqəm, Aşıq Pəri, Aşıq Alı, Aşıq Ələsgər, Adfabanlı Qurban, Aşıq Şəmşir kimi klassik sənətkarlarımızın poetik irsi şifahi

qaynaqlarımızdan süzülən milli-mənəvi dəyərlərimiz, solmaz söz incilərimizdir. Bu həlqənin bir parçası da Dədə Şəmşirdir...

Aşıq Şəmşir dərs aldığı ustadların həqiqi varisi və ləyaqətli övladlarından biri idi. Onun qoşmaları, gəraylı və müxəmməsləri, təcnisləri, müxtəlif bağlamaları öz məzmununa, bədii keyfiyyətinə görə son dərəcə müasir və təravətlidir. Aşıq Şəmşir sanki köhnə dünya ilə yeni dünya arasında bir körpü idi. Hələ sovet dövründə olan Azərbaycanın incəsənət xadimi kimi şərəfli ad verilmişdi. Aşıq Şəmşir klassik aşıq poeziyası ilə müasir şeirimizi qovuşduraraq klassik nümunələr yaradıb.

Bir kəsə qalmadı dünyanın varı,
Hanı xan, xaqanlar, getdimi, getdi,
Atanlar, tutanlar, mənəm deyənlər,
Vuranlar, yıxanlar, getdimi, getdi.

Aşıq Şəmşirin şeirlərində Kəlbəcər dağlarının ucalığı, çəmənlərin genişliyi, çayların zümzüməsi, gül-çiçəyin ətri duyulur. Aşıq Şəmşirin şeirlərində Azərbaycan ucalığı, Azərbaycan zirvəsi var. Bu zirvədən yurdumuzun mənzərəsi çox gözəl və cazibəli görünür. Elə bir guşəmiz, dağımız, dərəmiz yoxdur ki, Aşıq Şəmşir onun gözəlliyinə heyran qalaraq şəninə şeir qoşmasın. Aşıq Şəmşirin sinəsində vətəndaş ürəyi döyünürdü. Bütün varlığı ilə xalqına, dəlicəsinə sevdiyi Kəlbəcərinə bağlı bir insan idi.

Şəms olub günəş kimi səddin, sorağın,-Kəlbəcər.
Nihandan aşkara çıxır, sərvət, yatağın, Kəlbəcər,
Bağı-gülüstanə dönüb indiki çağın Kəlbəcər,
Təzə, gözəl əndazədə var ağ otağın, Kəlbəcər,
Sayrışır ulduz təhər şəmin, çırağın Kəlbəcər...

Hələ ona sağlığında “Dədə Şəmşir” deyirdilər. Belə bir ifadəni bütöv xalq hər kəsin ünvanına deməz. Bu, Aşıq Şəmşirin ləyaqətli ömrünün el arasında yaratdığı hörmətin, ehtiramın

ifadəsinə dönmüşdü. Ən böyük arzusu Yer üzündə sülhün, dincliyin, halallıq və xeyirxahlığın bərqərar olması idi. El aşığı bu fikirdə idi ki, harada doğulmasından asılı olmayaraq Yer kürəsi bütün insanların anası olmalı və onu hamı sevməlidir. Nifrət bəslədiyi xüsusiyyət isə yarımçıqlıq, nadanlıq və xəyanət idi. Dədə Şəmşir belələrinə üz tutaraq yazırdı: "Dad əlindən bəd əməlin, qayğısını çəkməz elin". Məhz belələrini görmək istəməyən Aşıq Şəmşir yazırdı:

Qırmışam ayaq-başını,
Müxtəsər, atdım daşını
Dedim, düzəldim işini,
Baxıram ki, qanqal olur...

Həmişə qəlbində gül-çiçək bitirən və bu gözəlliyi öz şeirlərinə gətirən Dədə Şəmşir darıxanda yönünü dağlara tuturdu.

Dağlara aşiqəm, mən pasibanam,
Xınalı dağlarda qalır nişanım.
Atam Dəlidağdı, İstisu anam,
Nəvə olub oğlum, qızım dağlara...

Ağır ellərin bu mötəbər dədəsi dəfələrlə zirvələrin ağ qarını öpüb, buz bulaqlı yaylaqlarında saz tutub, söz deyib. Dədə Şəmşirli meydanlar o qədər bol olub ki, maraqlı söhbəti, dadlı xatirələri bu gün də yaşamaqdadır. O, ahıl yaşlarında belə səhnədə tufan qopardı. Sazın simlərindən qasırğa yağardı. Bir bülbül avazı vardı onun nəfəsində. Adama elə gəlirdi ki, o səsin ahəngində Kür Arazla qovuşur. Sanki tutqun buludların tən ortasında Ayın gül camalı görünərdi. Düz ilqarlı aşıq sanki qocalığın əlindən təngə gələrək onun acığına, ona inad meydanda arzularını dilə gətirərdi.

Çağırsan cavanlıq yetişməz hova,
Yanar cismin inan sönməz alova.
Çıxmaq üçün Dəlidağa, Murova,

Söylə görüm, varmı səndə hal, aşıq?

Dədə Şəmşir dünyasını dəyişəndə də onu adi qəbiristanlıqda deyil, Murovun zirvəsində Tanrının haqqına tapşırmışdılar. Bu onun öz istəyi, öz arzusu idi. Çünki bütün ömrü boyu bu dağların məcnunu idi.

Daşqın çaylar kimi axsam da, əgər,
Savalan seyrinə çıxsam da, əgər,
Məğribdən, Məşribə baxsam da, əgər,
Həsrət qalır yenə gözüm dağlara.

Ömrü boyu Kəlbəcərdən kənarda yaşaya bilməyən, o yerlərsiz nəfəs almayan Dədə Şəmşir təsadüfən qismətinə çıxan ayrılıqdan xiffətlənərək öz hisslərini belə qələmə almışdır.

Söylə görüm çoxmu buzluq,
Dağlar həmən yerindəmi?
Sarı nərgiz, tər bənövşə,
Çiçək, çəmən yerindəmi?

İnsanın qəlbindən buz soyuqluğu keçir, indi yadlar tapdağında qalan Kəlbəcərdən xəbərimiz yoxdur. Birdən onun ruhu bizə sual versə, nə edərik?.. Yenə də onun öz şeirlərindən cavab axtarırıq.

Qorxursanmı boran, qardan,
Bir xəbər ver o diyardan
Ayrı düşən sən tək yardan,
Ağlı varmı, kişidirmi?
Soruşuram o dağlardan o dağlardan,
Boran səni üşüdürmü?
Müdam sənə “can” deyirəm,
Qulaqların eşidirmi?

1993-cü ilin aprelində Aşıq Şəmşirin vətəni Kəlbəcər ermənilər tərəfindən işğal olundu. Dağlar qucağında qərar

tutmuş elimiz dağıdıldı. Düşmənlərimizin bu qovhaqovunda Aşıq Şəmşirin doğma qızı, yaxın qohumları qətlə yetirildi. Ata-baba yurdu talan edildi. Bununla bərabər, aşığın Aşıq Şəmşirin əski əlifba ilə yazdığı və əksəriyyəti də çap edilməmiş şeirləri yandırıldı. Aşıq Şəmşirin Ağdabandakı evini ermənilər külə döndərdilər. Bu adicə ev yox, 40 mindən artıq eksponatı olan əsl muzey idi.

Mənə sənsən ata, ay ana torpaq,
Üzüm dönməz səndən, ay ana torpaq.
Bir gün qucağına basarsan məni,
Qoyma cismim səndə a yana, torpaq.

Təbii ki, yenə Kəlbəcərdə fəsillər dəyişir, dağ çeşmələri həzin-həzin dillənir, bircə o telli saz çalınmır, Aşıq Şəmşir sevinmir, didərgin ellər geri dönmür. Doğma yurd yağıya qalıb. Gözləri yolda qalan ulu dağlar.

Gəl üzü nur saçan mələklər kimi,
Cənnəti-rizvanda təzə tər kimi.
Səmər köks ötürür bir nökər kimi,
Qulun olum, qulluğunda qalım, gəl.

***Ekskursiya*** – Şairin yaradıcılığını oxuculara daha səmərəli tanıtmaq üçün *ekskursiya* təşkil oluna bilər. Ekskursiya "Aşıq Şəmşir" Mədəniyyət Ocağı İctimai Birliyinədir. Bunun üçün oxucular əvvəlcədən Aşıq Şəmşirin yaradıcılığı ilə tanış olurlar. Təyin olunmuş tarixdə kitabxanaya gələn oxucular kitabxana işçilərinin nəzarəti ilə birliyə yol alırlar. Birliyin işçiləri tərəfindən qarşılanan iştirakçılar sözü gedən məkanla yaxından tanış olurlar.

*Bələdçi:* "Aşıq Şəmşir" Mədəniyyət Ocağı İctimai Birliyi 29 yanvar 2010-cu il tarixində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır. Birliyin məqsədi milli mədəniyyətimizi və mədəni incilərimizi,

adət-ənənələrimizi, aşıq sənəti, folklor və digər incəsənət nümunələrini toplamaq, araşdırmaq, onları qoruyub yaşatmaq, təbliğ etmək və gələcək nəsillərə çatdırılmasına, Aşıq Şəmşir yaradıcılığının öyrənilməsinə, onun irsinin qorunmasına, istedadlı gənclərə yardım etmək və aşıq sənətinin inkişaf etdirilməsinə kömək etməkdən ibarətdir. Həmçinin müxtəlif kurslar və seminarlar, monitorinqlər, dəyirmi masa və görüşlər, sərgilər təşkil edir, konfranslar xeyriyyə marafonları, digər mədəni-kütləvi tədbirlər keçirirlər.

Milli mədəniyyətimizin və mədəni incilərimizin, folklor nümünələrimizin, aşıq sənətinin YUNESKO səviyyəsində təbliğ edilməsində və milli mədəniyyətimizin dünyada tanıdılmasında görülən işlərə yardımçı olur, mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsinə dəstək olur. "Aşıq Şəmşir" Mədəniyyət Ocağı İctimai Birliyi ölkəmizdə həyata keçirilən kütləvi-mədəni və sosialyönümlü tədbirlərdə yaxından iştirak edir, sosial qayğıya ehtiyacı olan insanlara maddi və mənəvi yardımcı olur. "Aşıq Şəmşir" Mədəniyyət Ocağı İctimai Birliyi Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə "Unudulmaqda olan xalq sənəti nümunələrinin təbliği" ilə bağlı layihə həyata keçirmişdir.

Yarandığı gündən etibarən İctimai Birlik müxtəlif səpgili xeyiriyyə tədbirləri, seminarlar, debatlar, bilik olimpiadaları və konfranslar təşkil edir. Həmçinin gənc və istedadlı yazarların kitablarının nəşr edilməsinə yardımçı olur. "Aşıq Şəmşir" Mədəniyyət Ocağı İctimai Birliyi xalqımızın görkəmli və istedadlı şəxsiyyətlərinin hər il qeyd edilən doğum və anım günlərində də tədbirlər təşkil etmişdir. Ulu Öndərimiz Heydər Əliyevin irsinin öyrənilməsi və gənc nəslə aşılanması ilə bağlı silsilə təbirlər keçirir. İctimai Birlik ölkəmizdə xüsusi qeyd edilən əlamətdar günlərdə də müxtəlif tədbirlər təşkil edir. "Aşıq Şəmşir" Mədəniyyət Ocağı İctimai Birliyi ölkəmizdə

Cənab Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü və uzaqgörən siyasətə dəstək olaraq Gənclər ilində, Ekologiya ilində gənclərin bilik və idman yarışlarını, ağacəkmə aksiyalarını təşkil etmişdir. İctimai Birliyin əsas vəzifələrindən biri olan erməni qəsbkarlarının vətənimizə, millətimizə vurduğu ziyanları, ermənilərin törətdikləri cinayətləri dünyaya çatdırmaqdan ibarətdir. Bu sahədə də təşkilat bir sıra layihələr həyata keçirmişdir. Təşkilat tərəfindən çap edilən məlumatverici materiallar Azərbaycanda, həmçinin təşkilatın Almaniya və Türkiyə nümayəndəlikləri tərəfindən də bir sıra xarici ölkələrdə paylanmışdır. İctimai Birliyin beynəlxalq fəaliyyəti də çox uğurla davam və inkişaf etdirilir. Təşkilat dəfələrlə Türkiyədə, Almaniyada, İsveçdə və Rusiyada mədəniyyətimizin təbliği ilə bağlı tədbirlər, bayram şənlikləri, elmi konfranslar təşkil etmişdir. "Aşıq Şəmşir" Mədəniyyət Ocağı İctimai Birliyi bu gün də öz nizamnaməsinə uyğun olaraq fəaliyyət göstərir və gələcəkdə fəaliyyətini daha da genişləndirmək niyyətindədir. *Tədbirin sonunda oxucular şairin şeirlərindən parçalar söyləyirlər*.

Aşıq Şəmşirin 125 illik yubileyi ilə bağlı keçirilən maraqlı tədbirlərdən biri də *poeziya gecəsidir*. Gecəni ***"Didərgin ellər ozanı"*** başlığı altında keçirmək olar. Bu sazlı-sözlü, mahnı, şeir töhfəli gecəyə Azərbaycanın görkəmli sənət-söz adamlarını, oxucuları, müəllimləri, aşıq və bəstəkarları, folklorşünasları ümumilikdə poeziya həvəskarlarını dəvət etmək olar. Tədbirə şairin öz səsindən səslənən mahnılarla və onun haqqında hazırlanmış slaydla başlamaq olar.

***I aparıcı:*** Elin nəğməkarı, aşığıyam mən,
Siz qalın qaydıma barı mənim də.
Nə umuram qocalıqda təzədən?
Meylim axır dosta sarı mənim də...

***II aparıcı:*** Salam, dəyərli qonaqlar, Aşıq Şəmşir sevərlər, şeirə-sözə, saza-avaza vurğun oxucular, bu gözəl şeirli, nəğməli tədbirə xoş gəlmisiniz. Bu gün hamımız Aşıq Şəmşirin 125 illik yubileyi münasibətilə onun keçdiyi ömür yoluna işıq salmaq üçün şairin söz ocağına, istisinə yığışmağa, Dədə Şəmşir zirvəsindən od götürməyə yığışmışıq. Çünki Azərbaycan torpağında Aşıq Şəmşir zirvəsi var. Bu zirvədən günəş doğur.

***I aparıcı:*** Qədim zamanlarda ozanlar, sonrakı dövrlərdə aşıqlar elin ən hörmətli ağsaqqalı, məsləhətçisi, dostu sayılmışlar. Onlar həmişə el içində yaşamış, öz dövrlərnin, mühitlərinin bilikli, məlumatlı, xeyirxah adamı, istedadlı, müdrik sənətkarları olmuşlar. El aşıqları həmişə camaatın gözü önündə, xeyrində-şərində yaxından iştirak etdiklərindən, onun dərdinə-azarına yaxşı bələd olmuşlar. Onlar köhnə dünyada hökm sürən ictimai haqsızlıqları öz gözləri ilə görmüşlər. Düzlüyü, ədaləti, haqqı tərənnüm etmişlər. Aşıq Şəmşir də belə öncül aşıqlardandır.

***II aparıcı:***

Sadiq ol, dünyada sən dolandır göz,
Guşinə girməsin fitnə, yalan söz,
Düşəndə bir bərkə polad kimi döz,
Heç qorxub çəkinmə, dəyanət eylə.

***I aparıcı:*** Şairin əsərləri içərisində insanları düzlüyə, sədaqətə, hünərə, cəsarətə, dostluğa, qardaşlığa çağıran humanist ruhlu müdrik ustadnamələri vardır. Aşıq Şəmşirin müxtəlif şeir şəkillərində yazılmış "Məni", "Yara üz", "A lələ", "Bu dərdi" kimi iyirmidən çox təcnisi vardır. Məlum olduğu kimi, təcnislər özlərini nəriş-arğac cinaslı sözlərinin toxunuşu ilə oxucunu heyran qoyur. Təcnis şeirin çox çətin formasıdır. Aşıq Şəmşir bu imtahandan da hünərlə çıxmışdır...

***II aparıcı:*** Onun şeirlərində bu günün güclü nəfəsi hiss edilməkdədir, müasirlik hissi, müasirlik eşqi, həvəsi hakimdir.

Bədii, obrazlı dil şeirin ayrılmaz hissəsidir. Zəif və kobud dillə yaxşı şeir yazmaq mümkün deyildir. Yaxşı şeir zəngin dildən bacarıqla istifadə etməyin məhsuludur. Aşıq Şəmşirin şeir dili çox sadə, bədii və şirindir. Onun dilinin lüğət tərkibini canlı xalq dili, folklorumuzdan, qismən də yazılı ədəbiyyatımızdan gələn sözlər təşkil edir. Şairin təbiət və insan gözəlliyinə həsr edilmiş şeirləri çoxdur. O xüsusən dağlar, gözəllər, gözlərin təsviri kimi mövzulara onlarca şeir yazmışdır.

***I aparıcı:*** Mötəbər saz-söz pərvanələri, bu gün sizlərlə sazın və sözün böyük yaradıcılarından olan Əməkdar mədəniyyət xadimi unudulmaz sənətkar Aşıq Şəmşirin zəngin irsindən qismən də olsa, bəhrələndik. Aşıq Şəmşir şifahi xalq mədəniyyətimizin dərin bilicisi, mahir dastan ifaçısı, kimi tanınan söz ustasının bədii yaradıcılığında Azərbaycan təbiətinin gözəllikləri, vətən sevgisi, torpağa bağlılıq başlıca motivlər şairin əsas məqsədlərindəndir.

Kəlbəcər hər bir kəlbəcərlinin bir fiziki ömür müddətində vətəndir. Dədə Şəmşir isə bütün ömürlər müddətində Kəlbəcərin sahibidir! Aşıq Şəmşir Dəlidağın və cümlə kəlbəcərlilərin əlində-ovcunda qalan mənəvi dəyərimizdir. Başqa sözlə, canlı Kəlbəcərimizdir Dədə Şəmşir!!!

***II aparıcı:*** Ustaddan dərsimi almışam cəmi;
Ümmanam, köksümdə üzər min gəmi!
Təlatüm eylərəm dəryalar kimi,
Xislətdə sadəyəm, eşqimdə Qafam!
Mən mürvət kanıyam, əhli insafam!
Gövhəri tanıyan qoca sərrafam,
Seçilmiş cövhərin zərgəriyəm mən!

## Ədəbiyyat siyahısı

### *Əsərləri*

Seçilmiş əsərləri. - Bakı : Avrasiya Press, 2006. - 400 s.

O Kürün, Arazın Tərtəriyəm Mən : şeirlər. - Bakı : Sabah, 2004. - 509 s.

### *Haqqında*

### *Kitablar*

**Pirsultanlı S. P.** Aşıq Şəmşirin poetik aləminə səyahət. - Bakı : Təknur, 2008. - 296 s.

### *Kitablarda*

**Xəyal S.** Aşıq Şəmşirin poetik aləminə səyahət // Yaddaşlarda yaşayacaq. – Bakı : MBM, 2011. – S. 10-15.

**Təhmasib M.** Özü də Şəmşir, sözü də Şəmşir // Məqalələr. - Bakı : Elm, 2005. - III fəsil: Ustad aşıqlar. - S. 111-126. - İlk dəfə "Azərbaycan" jurnalının 1973-cü il tarixli 8-ci nömrəsində (S.73-179) dərc edilmişdir.

**Pirsultanlı S.P.** Zəlimxan Yaqub və Aşıq Şəmşir // Zəlimxan Yaqub ədəbi düşüncədə. - Bakı : Vətən, 2009. – C.2. – S.12-17.

### *Dövri mətbuatda*

**Aşıq Şəmşirin 125** illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (2 aprel 2018-ci il) // Xalq qəzeti. - 2018. - 3 aprel. - № 73. - S. 1.

**Dilsuz.** Dədə Şəmşirin iki yeni şeiri və bir fotosu : [Dilsuz müəllimlə müsahibə / söhbətləşdi M. Əyyub]  // Palitra. - 2018. - 11 aprel. - № 63. - S. 13.

**Fərəcov S.** Aşıq musiqi axşamları davam edir : Növbəti ədəbi-musiqili proqram Aşıq Şəmşirə həsr olunmuşdu // Mədəniyyət. - 2018. - 30 mart. - № 25. - S. 5.

**Fərəcova Z.** Şəmşirəm... Böyük aşıqların dəftəriyəm mən // Yada düşdü. - 2016. - № 2. - S. 26-30.

**Hacızadə N.** "Ellərin dilinin əzbəriyəm mən" - belə deyirdi Dədə Şəmşir // Yada düşdü. - 2014. - **№ Yanvar/Fevral**. - S. 69-75.

**Nərimanoğlu M.** Zərli tac kamallı başa yaraşır : Ağdabanlı Qurbanın sənət zirvəsindən başlanan yolun ustad davamçısı : Aşıq Şəmşir - 125 // Azərbaycan. - 2018. - 15 mart. - № 58. - S. 7.

***Aşıqa həsr olunmuş ithaflar***

**Ünvanımız – Dədə Şəmşir** : İthaflar, deyişmələr. - Bakı : Adiloğlu, 2011. - 224 s. : portr. ; 18 sm. - 300 экз.

# Yetsə qulağına Şəmşirin səsi
**(metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 37
Çapa imzalanmışdır: 04.05.2018
Tirajı:100
Pulsuz